**Zeynəb Əhməd HƏCƏMOVA**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı
AMEA Rəyasət Heyəti aparatı Humanitar Elmlər Bölməsi
Email: zeynebhecemova1990@gmail.com
ORCID ID: 0000-0001-5886-0984

# ÜZEYİR HACIBƏYLİ YARADICILIĞINDA EMOSİONAL-ZƏKA MİLLİ ÖZÜNÜDƏRK ATRİBUTU KİMİ

**Xülasə**

Tədqiqatın tətbiqi əhəmiyyəti musiqişünaslığın Azərbaycanda cəmiyyətin milli ruhda inkişafı spesifikası ilə səciyyələnir. Bu ənənə gələcəkdə gənc nəslə musiqi psixofiziologiyası təlimlərinin tədrisi, milli musiqişünaslığın psixoloji əsasları, musiqi qavrayışının emosional zəka ilə əlaqəsi, musiqişünaslığın milli özünüdərk affektinə inteqrasiyası və s. kimi müasir fundamental tədqiqatların aparılmasının təşviqi məqsədilə aparılmışdır. Parlaq sütunlarını yüksək bədii-estetik zövq, vətənpərvərlik, millilik, müasirlik, inkişaf, intibah, humanistlik və professional ideyaların zirvəsini təşkil edən Üzeyir Hacıbəylinin zəngin fəaliyyətinin sosial-psixoloji təhlili emosional zəka və affektlər nəzəriyyəsi ilə əlaqəli şəkildə aparılmışdır. Məzmun təhlili metodundan istifadə edilərək keyfiyyət (qualitative method) üsulu tətbiq olunmuşdur. Üzeyir Hacıbəyli yaradıcılığında emosional zəkanın milli özünüdərk ilə əlaqəsinin spesifik vahidləri müəyyənləşdirilmişdir. Akademik Üzeyir Hacıbəylinin yaradıcılığında bədii-estetik stimullar pedaqoji (öyrədici) və psixoloji (zəkanın emosional yolla idarə edilməsi, yəni dərk etdirici) proses olaraq insanı duyğu və qavrayış vasitəsilə maarifləndirir. Elmi əsərdə emosional-zəka anlayışı və musiqişünaslığın mühüm bölməsi olaraq musiqi psixologiyasının atributlarına müraciət etməklə Azərbaycanın musiqişünaslıq elminin işığında apardığımız sosial-psixoloji tədqiqat işinin aktuallığını ifadə etməyə çalışmışıq.

**Açar sözlər:** bədii-estetik musiqi qavrayışı; emosional zəka; pedaqoji fəaliyyət; intibah fəlsəfəsi; milli özünüdərk; affektlər nəzəriyyəsi; güclü dövlətçilik; əbədiyyət.

**UOT:** 78.071:159.9
**JEL:** Z11
**DOI:** https://doi.org/10.54414/TDXQ4978

## Giriş

Azərbaycan xalqı qədim dövlətçilik tarixinə, çoxəsrlik mədəniyyət ənənələrinə və pedaqoji potensiala malikdir. Belə ki, Azərbaycanda dövlətçiliyin inkişafı milli-estetik irsin və bədii-estetik şüurun formalaşması üçün zəmin yaratmışdır. Zəngin nəzəri və təcrübi təfəkkürün minilliklər ərzində qavranılması möhkəm təməllərə əsaslanaraq dahi şəxsiyyətlərin fəaliyyəti sayəsində gerçəkləşmiş və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi, bu günü və gələcəyi arasında sarsılmaz mənəvi körpü rolunu oynamışdır. Bu məqamda sözümüzə qüvvət və alilik qazandırmaq üçün xalqın adət və ənənələrini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin *"Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən və qədim tarixi kökə malik olmasından xəbər verir"* – ifadəsini xüsusi vurğulamaq yerinə düşərdi [9]. Uca Rəbbim Azərbaycan xalqına Üzeyir Hacıbəyli kimi dahi sənətkar və şəxsiyyət bəxş etmişdir və onun ömrü Azərbaycan xalqının inkişafı və elmi-ictimai tərəqqisinin bərqərar olmasına xidmət etmişdir. Üzeyir Hacıbəyli Azərbaycan Respublikasının Dövlət Himninin bəstəkarıdır. Dahi elmi-ictimai xadim, musiqişünas, alicənab və parlaq şəxsiyyət olan Üzeyir Hacıbəyli öz dəyərli ömrünü əvəzolunmaz yaradıcılığa həsr edərək Azərbaycanın musiqi

mədəniyyətinə millilik və beynəlmiləlçilik ideyaları qazandırmışdır. Bir ömrə bu qədər zəngin fəaliyyət sığdıran bir şəxsiyyət haqqında tək bir məqalə üzərində oxucuya ümumi fikir çatdırmaq tədqiqatçıdan böyük səriştə və məsuliyyət tələb edir. Təqdim etdiyimiz elmi əsərdə Azərbaycanın intibah və pedaqoji fikir tarixində Üzeyir Hacıbəyli epoxasının və çoxşaxəli fəaliyyətindəki emosional-zehni xüsusiyyətlərin sosial-psixoloji baxımdan təhlilini aparmaqla əhatəli fikir çatdırmağa cəhd göstərəcəyik.

**Əsas hissə**

Azərbaycanın müasir peşəkar musiqi sənətinin banisi, pedaqoq və ictimai xadim Üzeyir Əbdülhüseyn bəy oğlu Hacıbəyli 5 (18) sentyabr 1885-ci il tarixində Qarabağın Ağcabədi kəndində, Şuşa qəzasında anadan olmuşdur. Gələcək bəstəkarın atası Əbdülhüseyn bəy uzun müddət məşhur Azərbaycan şairəsi, ictimai xadim və Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şəxsi katibi olmuş, anası Şirin xanım Əliverdibəyova isə şairənin evində böyümüşdür [14]. Mədrəsə təhsilini və ikiillik rus-tatar məktəbini bitirdikdən sonra Üzeyir Hacıbəyli 1899–1904-cü illərdə Qori şəhərindəki müəllimlər seminariyasında oxumuş, seminariyanı bitirdikdən sonra Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin olunaraq rus dili, tarix, nəğmə, texniki və musiqi fənlərini tədris etmişdir [12]. Təhsil illərində o, dünya mədəniyyəti ilə yaxından tanış olmuş, rus və Avropa musiqiçilərinin əsərlərini mənimsəmiş, skripkada, nəfəsli alətlərdə çalmağı öyrənmişdir [14]. 1911-ci ildə sistematik musiqi təhsili almaq məqsədilə Moskvaya yola düşən Üzeyir bəy daha sonra Sankt-Peterburqa köçərək təhsilini konservatoriyada davam etdirmişdir. Diabetdən əziyyət çəkən Üzeyir Hacıbəyli 1948-ci il noyabrın 23-də vəfat etmiş, Bakıda Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur [14].

Üzeyir Hacıbəyli Azərbaycanın, o cümlədən Şərq opera sənətinin banisi, “Leyli və Məcnun”, “Koroğlu” kimi təkrarolunmaz operaların müəllifi olaraq dahi musiqişünas-alim, “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi-nəzəri risalənin müəllifi, “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan” operettalarının və eyni zamanda bu əsərlərin librettolarının müəllifi, publisist, jurnalist, saysız-hesabsız dəyərli məqalələrin müəllifi və pedaqoqdur. Üzeyir Hacıbəyli dünyəvi elmi biliklərə sahib olan alim-bəstəkardır. Üzeyir bəy pedaqoji fəaliyyətinə 1904-cü ildə Qarabağ mahalının Hadrut kəndində rus dili müəllimi olaraq başlamış, 1906-1912-ci illərdə Bakıda “Bibiheybət” məktəbində, bir müddət sonra isə şəhərin "Səadət" məktəbində ana dili və riyaziyyat fənlərini tədris etməklə davam etdirmişdir. Üzeyir bəy “Səadət” məktəbində dərs dediyi dövrdə (1907) “Siyasi, hüquqi, iqtisadi və hərbi sözlərin türkü-rusi və rusi-türkü” lüğətini yazmış və “Hesab məsələləri” kitabını [13, s.4-7] tərtib edərək nəşr etdirmiş, N.V.Qoqolun “Şinel” əsərini doğma dilinə tərcümə etmiş [12], bir sıra hekayə və miniatürlər yazmışdır. Musiqi sənətini tədris etməklə Üzeyir Hacıbəylinin pedaqoji təcrübəsi özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycanın musiqişünaslıq elminin inkişafında müstəsna xidmətlər göstərən dahi bəstəkar Üzeyir Hacıbəyli həm də dəyərli ömrünü Vətən eşqi ilə yaşamış görkəmli maarifçi, ziyalı alim və görkəmli intibah nümayəndəsidir. Onun ömür kitabına nəzər salmaq nə qədər şərəflidirsə, bir o qədər də məsuliyyətlidir. Azərbaycanda nəhəng bəstəkarlıq məktəbinin əsası qoyan Üzeyir Hacıbəyli görkəmli musiqiçilər yetişdirmiş və pedaqoji fəaliyyətinin məzmun dəyərlərini miras olaraq gənc nəslə ötürmüşdür. O miras ki, bu gün də öz aktuallığını qoruyub saxlayır.

Dahi şəxsiyyət Üzeyir Hacıbəyli pedaqoji fəaliyyətlə məşğul olmaqla bərabər həm də yazıçı, Azərbaycanda və xaricdə bir çox tanınmış bəstəkar-musiqiçilərin pedaqoqu və müəllimi kimi tanınır. Üzeyir Hacıbəyli 1904-cü ildən 1920-ci ilə qədər mətbuatda 600-ə qədər müxtəlif məzmunlu məqalələr yazsa da, sovet işğalından sonra vəfat edənə qədər isə 30 məqalə yazmışdır. Bu məqalələrin də əksəriyyəti musiqi ilə bağlı olmuşdur [14]. Qeyd edək ki, mətbuatda Azərbaycanın musiqi mədəniyyətinin inkişafını şərtləndirən zərurətlərin ictimaiyyətə çatdırılmasına xidmət edən yazılar dərc etdirən Üzeyir Hacıbəyli ilk dəfə olaraq musiqi mədəniyyətinin gələcək dövlətçilik ənənələrinə və idarəçilik konsepsiyasının atributlarından birinə çevirməyə çalışırdı. Dövr üçün müstəsna hadisə olan intibah fəaliyyəti maneə və qərəzli münasibətlə

də qarşılaşsa da, Vətən eşqi Üzeyir bəyi daha da böyük səylə çalışmağa vadar etmişdir. Onun nəticəsidir ki, müasir dövrdə Azərbaycanda dövlətçilik ənənələrinin və xalqın tarixi inkişafı, ölkədə cəmiyyətin formalaşması və təkamülü bu nəzəriyyə əsasında təşəkkül tapmışdır. Belə ki, zamanında Azərbaycanın musiqi mədəniyyəti olduqca məhdud inkişaf xəritəsinə malik olmuşdur. Dövrünün ictimai-siyasi problemləri ilə mübarizə aparan Üzeyir bəy isə musiqi sənətini xalqının inkişaf perspektivinə çevirməyin yollarını axtaran, Azərbaycan musiqisinin taleyi haqqında düşünən və onun gələcək perspektivlərinə dair tədqiqatlar aparan nadir insanlardan olmuşdur.

Məlumdur ki, musiqişünaslıq elminin və musiqi təfəkkürünün inkişafına zərurət yaradan bir sıra mühüm amillər vardır. Zərurətlərin real imkanlara çevrilməsi isə XX əsrdə Azərbaycan musiqişünaslığının əsasını qoymuş Üzeyir Hacıbəylinin elmi irsini tərənnüm edən, milli musiqi mədəniyyətimizin inkişafı üçün proqram əhəmiyyətli elmi və yaşadığı dövrün musiqi həyatının tam mənzərəsini əks etdirən publisistik məqalələrdən ibarət elmi yaradıcılığının şah əsəri sayılan “Azərbaycan xalq musiqisinin əsasları” elmi-fundamental tədqiqat əsərinin yazması ilə vüsət almışdır. Üzeyir bəy ilk dəfə olaraq, öz elmi tədqiqatında Şərq və Qərbin çoxəsrlik musiqi nəzər fikir təcrübəsinə istinad edərək Azərbaycan xalq musiqisinin məqam sisteminin təsnifatını vermiş və Azərbaycan musiqisinin dünya mədəniyyət arenasında tanınmasına dair misilsiz töhfə vermişdir [10, s.8-10]. Üzeyir bəy milli musiqinin inkişaf məsələlərini beynəlmiləl musiqi əlaqələrindən və təsirlərindən təcrid etməyərək vəhdət şəklində həll etmişdir. Əsas məqsədi Azərbaycanda türk əhalisi arasında musiqi təhsilini təbliğ etmək olan Üzeyir bəy dərk edirdi ki, çoxsəsli xor sənətinin inkişafını milli əsas üzərində qurmaq, yəni Azərbaycan xalq musiqisinin əsasında çoxsəsli formanın elementlərini tapmaq lazımdır. 1927-ci ildə Üzeyir Hacıbəyli Müslim Maqomayevlə birlikdə “Azərbaycan xalq mahnıları” məcmuəsini nəşr etdirir. Üzeyir bəy dövrün, zamanın nəbzini həssaslıqla duyan, xalqın daxili tələblərini hiss edən və bu tələblərə musiqidə uyğun janrlar və formalar tapa bilən böyük sənətkar olmuşdur. Üzeyir Hacıbəyli musiqiyə canlı kapital və bütöv sistem kimi yanaşır, xalqın “musiqi barigahını” onun əsasında qururdu [13, s.13-17].

Dahi bəstəkar Üzeyir Hacıbəyovun yaradıcılığında inkişaf, sistematiklik, mütəşəkkil və təlim xarakterli xüsusiyyətlər prioritet təşkil edir. Onun bəstələdiyi hər bir əsər insan şəxsiyyətinin formalaşması və ümumxalq səviyyədə inkişafı məsələlərini hədəfə almışdı. Başqa sözlə desək, dinləmə yolu ilə qavrama, dərketmə və inkişaf Üzeyir Hacıbəylinin bəstəkarlıq dəst xəttini tərənnüm edir. Məşhur filosof Rene Dekartın fikrincə, insan yalnız zəkanın köməyi ilə zəruri bilik edə bilər [3]. Üzeyir Hacıbəyli yaradıcılığı isə insanın təkcə zəka ilə deyil, həm də emosional zəka vasitəsilə uğur qazanmaq imkanını dəstəkləyir. Məlumat üçün qeyd edək ki, elm dünyasında ən mükəmməl şəkildə amerikalı psixoloq və jurnalist Daniel Qoleman tərəfindən şərh olunan “emosional zəka nəzəriyyəsi”nin [4] duyğuları anlamaq və idarə etmək kimi səmərəli səciyyəsi vardır. Üzeyir Hacıbəyovun yaradıcı fəaliyyəti ilə emosional zəka nəzəriyyəsi arasında əlaqə də məhz duyğulara musiqi vasitəsilə emosional təsir göstərmək, öyrədici fəaliyyətlə insan zəkasını inkişafa təşviq etmək və hər iki mürəkkəb prosesin nəticəsi olaraq “zəkanın emosional idarəetməsi” və “yaradıcı təfəkkürün stimullaşdırılması” formasında reallaşır [5]. Üzeyir Hacıbəyli Azərbaycan xalqının inkişafını özünün zəngin tərbiyəvi, bədii-estetik və məntiqi idarəetmə fəlsəfəsi sayəsində yaradıcı və öyrədici üsulla təshih edir. Məlumdur ki, cəmiyyətimiz üçün vətənpərvər insanlar hazırlamaq, habelə onların kamillik zirvəsinə qalxması, milli özünüdərketməsi, əxlaqi cəhətdən kamilləşməsi və mənəviyyatca zənginləşməsi üçün çalışmaq son dərəcə şərəfli, çətin işdir [10, s.11] və Üzeyir Hacıbəyov belə bir müqəddəs vəzifəni özünün musiqişünaslıq, pedaqoji və dramaturgiya fəaliyyəti ilə yerinə yetirmişdir. Görkəmli Azərbaycan klassiki Üzeyir Hacıbəylinin elmi irsi Azərbaycanın xalq musiqi mədəniyyəti ənənələrinin öyrənilməsi və gələcək nəsillərə ötürülməsi istiqamətində əsas tədris materialı rolunu oynayır [6, s.6]

Üzeyir Hacıbəylinin fəaliyyəti bütün baxış bucaqlarından vətənpərvərlik nümunəsidir və

onun yaradıcılığında musiqişünaslığın mühüm bölməsi olan musiqi psixologiyasının qavrayışla əlaqəsi diqqəti xüsusilə cəlb edir. Məsələn, Böyük Vətən müharibəsi illərində Üzeyir Hacıbəylinin vətənpərvərlik ruhunda yazdığı "Çağırış", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və simfonik orkestr üçün yazdığı "Cəngi" adlı qəhrəmanlıq pyesləri bunun əməli isbatıdır. Milli musiqinin inkişaf məsələlərinə xüsusi diqqət yetirən bəstəkar dərk edirdi ki, xalq musiqisinin ruhu yalnız peşəkar müstəvidə inkişaf etdiyi zaman bədii-estetik ziyalılıq təzahür edə bilər. Apardığımız təhlillər onu deməyə əsas verir ki, dövrün ictimai-siyasi və ictimai-məişət problemlərinin aradan qaldırılması yolları musiqişünaslıq və psixologiya elmlərinin qovşağında cəmləşib. Üzeyir bəy ensiklopedik biliyə malik olan alim-bəstəkar olduğu üçün belə vacib detalların fərqində olub. Dahi bəstəkar bəstələdiyi melodiyaların xüsusiliyini və koloritini auditoriyaya çatdırmaq üçün qarşısına müvafiq məqsədlər qoymuş, xalq ruhunu yaşatmaq üçün bəstəkarlıq texnikasının bütün imkanlarından yararlanmışdır. Qeyd edilən proses "affektlər nəzəriyyəsi"nin elementləri ilə uzlaşır. Affektlər nəzəriyyəsinin əsas xüsusiyyətlərinə görə bəstəkar yaradıcılığının məqsədi insanlarda affektləri oyatmaq, emosiyaları canlandırmaq, insanları müvafiq qruplar, müəyyən musiqi üslubları yaxud bəstəkarlıq yazısının vasitələri ətrafında birləşdirmək zərurətdir. Belə bir fikir vardır ki, affektlərin ötürülməsi "simpatiya"nı idarə edən hansısa sehrli hərəkətdir və "insan ilə musiqi arasında" təzahür edir [11]. Üzeyir Hacıbəylinin musiqi mədəniyyəti özündə millilik və müasirlik ehtiva etməklə yanaşı ruh yüksəkliyi, özünə və gələcəyə inam, qəhrəmanlıq və alicənablıq elementləri ehtiva edir. Üzeyir Hacıbəyli Azərbaycanda təkcə musiqi mədəniyyətinin deyil, musiqi-estetik konsepsiyasının da əsasını qoymuşdur. Sosial-psixoloji baxımdan fikirlərimizi "Cəngi" pyesinin motivləri üzərində cəmləşdirmək istərdik. "Cəngi" sözü məna baxımından savaş deməkdir. "Cəngi" cəngavərlik yerişini, meydan oxumanı, döyüşə çağırışı ifadə edir. "Cəngi"nin yaranma tarixi də çox qədimdir. Azərbaycan ərazisində Şamaxı rayonunda Cəngi adlanan ərazi də var: Qədim oğuz tayfalarında qəbilələr arasında döyüş və güləş zamanı, yarışlarda, hərbi mərasimlərdə Cəngidən istifadə edilirmiş. Xarakter cəhətdən "Qaytağı", "Halay" kimi musiqi əsərləri ilə eyni qrupdan olan "Cəngi" ilk dəfə Üzeyir Hacıbəyovun "Koroğlu" operasına daxil edilmişdir [2]. Cəngi pyesini yazmaqla Üzeyir Hacıbəyli Azərbaycanın epik qəhrəmanlıq operasının qəhrəmanı Koroğlu obrazının parlaqlığını və vətənpərvərliyini xalqa musiqi ilə çatdırmışdır.

Üzeyir Hacıbəylinin fəaliyyətinə nəzər saldıqda görürük ki, onun yaradıcılıq yolu Azərbaycan musiqi mədəniyyətinin yaranma və inkişaf tarixinin mühüm dövrünü inikas edir. Xalq sənətkarının zəngin fəaliyyətinə və dəyərli ömrünə göstərilən etimadın ən yüksək əlaməti olaraq, dahi bəstəkarın anadan olduğu gün – 18 sentyabr hər il Ulu Öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Musiqisinin bayramı kimi qeyd olunur [13, s.18]. Ümumilli Lider Heydər Əliyevin zəngin və təşəbbüskar fəaliyyətinin davamı olaraq Heydər Əliyev Fondu Azərbaycanda dövlətçilik ənənələrinin və xalqın mədəni irsinin qorunması, multikultural əlaqələrin genişləndirilməsi və Azərbaycançılıq məfkurəsinin təbliği istiqamətində misilsiz layihələr həyata keçirir [9]. Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında 1945-ci ildə bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağqara formatda çəkilmiş "Arşın mal alan" filmi Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə dünya kino sənayesinin əsas mərkəzi olan Hollivudda bərpa edilərək rəngli formatda hazırlanmış və filmin premyerası 10 dekabr 2013-cü ildə Heydər Əliyev Mərkəzində olmuşdur [7]. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun təşəbbüsü ilə dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş "Üzeyir dünyası" layihəsi hazırlanmış və 2008-ci il sentyabrın 17-də "Gülüstan" sarayında təqdimatı keçirilmişdir [15]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il sentyabrın 19-da Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak etmişdir. XIX əsrdə inşa olunan Üzeyir Hacıbəylinin evi 1959-

cu ildə ev-muzeyi kimi fəaliyyətə başlamış və Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərmişdir. Qeyd edək ki, Üzeyir Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılmışdır [8]. 2025-ci ilin sentyabr ayında dahi Azərbaycan bəstəkarı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Hacıbəylinin anadan olmasının 140 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında 3 fevral 2025-ci il tarixində Sərəncam imzalamışdır [16]. Sərəncamın icrası ilə əlaqədar olaraq bir sıra dövlət qurumlarında olduğu kimi Azərbaycan Milli Elmlər Akademiyasında da Üzeyir Hacıbəylinin zəngin ictimai-siyasi fəaliyyətinə həsr olunan silsilə tədbirlər keçirilmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq dahi bəstəkarın xatirəsinin əbədiləşdirilməsi məqsədilə 3 mart 2025-ci il tarixdə AMEA-nın “Üzeyir Hacıbəyli fəxri diplomu” təsis edilmişdir [1].

Üzeyir Hacıbəyli bütün dövrlərin dahi yazıçısı, istedadlı dramaturqu və musiqişünası, maarifpərvər pedaqoqu və bəstəkarıdır. Yetişən gənc nəslin vətənpərvər və fədakar ruhda, şərəfli və namuslu vətəndaş olaraq böyüməsi üçün duyğularla təsvir yaratmaq Üzeyir Hacıbəylinin yaradıcılığının əsas sosial-psixoloji şərhini ifadə edir.

**Nəticə**

Musiqi sözsüz müəllim, sirdaş və ötürücü vasitədir. Vətənpərvərlik hər bir xalqın milli dəyərlərini və özünüdərkini ifadə edən geniş məfhum olduğu üçün bu hisslərin insanlara duyğular vasitəsilə çatdırılmasında musiqi əvəzolunmaz rol oynayır. Bu baxımdan Üzeyir Hacıbəylinin yaradıcılığında emosional-zəka xüsusiyyətlərinin milli özünüdərklə əlaqəsi növbəti qaydada səciyyələndirilmişdir:

1. Pedaqoji ustalığın bədii-estetik və emosional-koqnitiv səciyyəsi – emosiyaların idarə olunması, psixoloji-pedaqoji və milli təsir;

2. Emosional-koqnitiv planlaşdırma və ünsiyyət – musiqi vasitəsilə duyğu və qavrayışın daxili özünüdərketməyə yönəldilməsi.

3. Musiqi vasitəsilə koqnitiv qarşılıqlı əlaqənin (koqnitiv interaksiya) və qavrayışın tərbiyə üsulu kimi tətbiqi.

Tədqiqat zamanı ilk dəfə olaraq Üzeyir Hacıbəylinin yaradıcılığında emosional zəkanın milli özünüdərklə əlaqəsinin əsas təzahür xüsusiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə musiqişünaslıqda istifadəsi geniş yayılan məzmun təhlili analizindən istifadə edilmiş və bu metodun keyfiyyət təhlili üsulu tətbiq edilmişdir. Tədqiqatın təşkili və həyata keçirilməsinə ümumilikdə 2 həftə sərf edilmişdir. İlk öncə tədqiqatın məqsədi, strukturu və əsas meyarı (bədii-estetik görüşlər və sosial-psixoloji xidmət) müəyyənləşdirilmişdir. Belə ki, tədqiqatın mərhələləri təsnifatlaşdırılaraq Üzeyir Hacıbəylinin pedaqoji görüşləri və musiqişünas kimi fəaliyyəti əsas götürülmüş, xalqın milli özünüdərk şüurunun və Vətənpərlik ruhunun formalaşması sahəsində göstərdiyi sosial-psixoloji xidmətlərin təhlili aparılmışdır. İlk dəfə olaraq bədii-estetik fəaliyyətin sosial-psixoloji mənalarına diqqət yetirilmiş, emosional zəka və affektlər nəzəriyyəsinin real imkanları motiv olaraq irəli sürülmüşdür. Üzeyir Hacıbəyli yaradıcılığında əsas motivlərdən biri milli dəyərlərin təbliği olduğundan emosional zəkanın və affektlər nəzəriyyəsinin məzmun kateqoriyaları qarşılıqlı şəkildə tədqiq olunmuşdur. Məzmun təhlili aparılan zaman məlum olmuşdur ki, Üzeyir Hacıbəylinin yaradıcılığında milli mənəvi dəyərlər musiqi dramaturgiyası və koqnitiv təlim vasitəsilə təbliğ olunmuşdur. Əldə edilən qənaətlərə görə, dahi bəstəkarın çoxşaxəli fəaliyyətində estetik təlim, koqnitiv qarşılıqlı əlaqə və qavrayışın, diqqətin və hafizənin musiqi təlqini yolu ilə sağlamlaşdırılması, xüsusilə də gənclərin tərbiyəsində mənəvi saflaşdırma, gələcəyə ümidlə yanaşma və qələbə ruhunun qəlibləşdirilməsi məsələləri müstəsna yer tutur.

Üzeyir Hacıbəylinin istedadı və dərin qələmi bəstələdiyi musiqi sədalarında milliliyin, müasirliyin, qələbə ruhunun və passionar varisliyin sintezini yaratmışdır. Üzeyir Hacıbəylinin yaradıcılığında milli özünüdərk şüurunun emosional zəka ilə qarşılıqlı əlaqəsi bədii-estetik

ifadə tərzi olan musiqi təlqini ilə uzlaşır və sosial-psixoloji baxımından tətbiqi əhəmiyyət kəsb edir. Hisslərin zəka ilə idarə olunması, insanda affekt hal baş verən zaman və ya təkrarlanan həyat vərdişlərinə daxil edilən düzgün seçilmiş musiqi notları vasitəsilə tərbiyə vermək, insan üçün əhəmiyyət kəsb edən dəyərlər sisteminin aşılanması tədqiqatın əsas elmi nəticəsini izah edə bilər. Belə ki, affekt hal insanın fövqəl-təbii bacarıqlarının ortaya çıxdığı məqamdır və bu vacib məqamın insanın öz zəkası ilə idarə edə bilməsi mühüm səciyyəyə malikdir.

**Təklif və tövsiyələr:** Musiqi vasitəsilə düşünmə, düşünmə yolu ilə mənəvi saflaşdırma və psixoloji sağlamlaşdırma – qeyd edilən üsul cəmiyyətin mənəvi inkişafında müsbət göstəricilərə işarə edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. AMEA-da görkəmli şəxslərin adına fəxri diplom təsis olunub: [Elektron resurs]. Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi internet səhifəsi. Bakı, 2025. Mart 03. https://science.gov.az/az/news/open/31863
2. Cəngi – rəqs: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 14 May, 2024 https://az.wikipedia.org/wiki/C%C9%99ngi_(r%C9%99qs)
3. Dekart: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 2024. Sentyabr 22. https://az.wikipedia.org/wiki/Rene_Dekart
4. Emosional zəka: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 2024. May 13. https://az.wikipedia.org/wiki/Emosional_z%C9%99ka
5. Emosional zəka nədir: Orvita. Psixoloji Reabilitasiya Mərkəzi. Bakı, 2025. https://orvita.az/emosional-zeka-nedir
6. Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları (dərs vəsaiti, tərt. ed.: Seyidov Tərlan). Ü.Hacıbəyli. Bakı: El nəşriyyatı, 2010. 48 s.
7. Heydər Əliyev Fondu: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 2024. Dekabr, 25. https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev_Fondu
8. İlham Əliyev Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib: [Elektron resurs]. Bakı, 2024. Sentyabr 19. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi: https://president.az/az/articles/view/66876
9. Qarayeva S. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği. 525-ci qəzet. Bakı, İyun 28, 2019. s. 6 https://www.anl.az/down/meqale/525/2019/iyun/661125.htm
10. Mirzəyev, F, Rüstəmova X. (2012) Pedaqoji ustalığın əsasları (dərs vəsaiti). F.Mirzəyev, Rüstəmova X. Bakı: “Avanqard E.H.” MMC, 144 s.
11. Musiqi psixologiyası: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 2024. Aprel, 16. https://az.wikipedia.org/wiki/Musiqi_psixologiyas%C4%B1Rene
12. Şiriyeva Z. Üzeyir Hacıbəyovun yaradıcılığı və maarifçilik fəaliyyəti [Elektron resurs]. Azərbaycan müəllimi. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin mətbu orqanı. Bakı, Sentyabr 2023. https://www.old.muallim.edu.az/news.php?id=26370
13. Üzeyir Hacıbəyli: biblioqrafiya. “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından. tərt. ed. Haşımova H, Orucəliyeva R [və b.]. Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxana. 2009. 371 s.
14. Üzeyir Hacıbəyov: Vikipediya. Azad ensiklopediya məlumatları. red. ed. Bakı, 2025. İyun 19. https://az.wikipedia.org/wiki/%C3%9Czeyir_Hac%C4%B1b%C9%99yov
15. Üzeyir dünyası: Layihə. Heydər Əliyev Fondu. Bakı, 2025 https://heydar-aliyev-foundation.org/az/content/view/96/2028/%C3%9Czeyir d%C3%BCnyas%C4%B1
16. Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs]. Azərbaycan Respublikası Prezidentinin

rəsmi internet səhifəsi. Bakı, 2025. Fevral, 03.
https://president.az/az/articles/view/68077

**Zeynab Ahmed HAJAMOVA**
PhD dissertant at the Institute of Philosophy and Sociology of ANAS
Department of Humanitarian sciences, Presidium of ANAS

## EMOTIONAL INTELLIGENCE IN THE CREATIVITY OF UZEYIR HAJIBEYLI AS AN ATTRIBUTE OF NATIONAL SELF-AWARENESS

### Summary

The socio-psychological analysis of the rich activity of Uzeyir Hajibeyli, whose bright pillars are high artistic-aesthetic taste, patriotism, nationality, modernity, development, renaissance, humanism and the pinnacle of professional ideas, was carried out in connection with the theory of emotional intelligence and affects. The applied significance of the research is characterized by the specifics of the development of musicology in the national spirit of society in Azerbaijan. This tradition can be continued in modern fundamental research in the future, such as teaching the younger generation the psychophysiology of music, the psychological foundations of national musicology, the relationship of music perception with emotional intelligence, the integration of musicology into the affect of national self-awareness, etc. In the work of Academician Uzeyir Hajibeyli, artistic-aesthetic stimul as a pedagogical (teaching) and psychological (emotional control of intelligence, i.e., perceptive) process, enlighten a person through feelings and perception. In the scientific work, we have tried to express the relevance of the socio-psychological research work we conducted in the light of Azerbaijani musicology by referring to the concept of emotional intelligence and the attributes of music psychology as an important section of musicology.

**Keywords**: artistic-aesthetic perception of music; emotional intelligence; pedagogical activity; philosophy of the renaissance; national self-awareness; theory of affects; powerful statehood; eternity.

**Зейнаб Ахмед ГАДЖАМОВА**
Диссерант Института Философии и Социологии Национальной Академии Наук Азербаджана
Департамент Гуманитарных Наук, Президиум АННА

## ЭМОЦИОНАЛЬНЫЙ ИНТЕЛЛЕКТ В ТВОРЧЕСТВЕ УЗЕЙРА ГАДЖИБЕЙЛИ КАК АТРИБУТ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ

### Резюме

Социально-психологический анализ богатой деятельности Узеира Гаджибейли, яркими столпами которой являются высокий художественно-эстетический вкус, патриотизм, народность, современность, развитие, возрождение, гуманизм и вершина профессиональных идей, был проведен в связи с теорией эмоционального интеллекта и аффектов. Прикладное значение исследования характеризуется спецификой развития музыкознания в национальном духе общества в Азербайджане. Эта традиция может быть продолжена в современных фундаментальных исследованиях в будущем, таких как обучение молодого поколения психофизиологии музыки, психологические основы национального музыкознания, связь восприятия музыки с эмоциональным интеллектом, интеграция музыкознания в аффект

национального самосознания и т. д. В работе академика Узеира Гаджибейли художественно-эстетические стимулы как педагогический (обучающий) и психологический (эмоциональный контроль интеллекта, т.е. перцептивный) процесс просвещают человека через чувства и восприятие. В научной работе мы попытались выразить актуальность проведенных нами социально-психологических исследований в свете азербайджанского музыкознания, обратившись к понятию эмоционального интеллекта и атрибутам музыкальной психологии как важного раздела музыкознания.

**Ключевые слова**: художественно-эстетическое восприятие музыки; эмоциональный интеллект; педагогическая деятельность; философия возрождения; национальное самосознание; теория аффектов; сильная государственность; вечность.

**Daxil olub:** 12.02.2026